Yazan
12.11.13 22:39 -

Gürcüstan Mərkəzi Seçki Komissiyası oktyabrın 27-də keçirilmiş prezident seçkilərinin yekun rəsmi nəticələrini açıqlayıb.

"Gürcü Arzusu" koalisiyasının namizədi Georgi Marqvelaşvilinin 62,12% səs toplayaraq prezident seçildiyi açıqlanıb.

Vahid Milli Hərəkat Partiyasının namizədi David Bakradze 21,72%, "Demokratik Hərəkat – Vahid Gürcüstan" Partiyasının lideri Nino Burcanadze isə 10,19% səs alıblar.

G. Marqvelaşvili noyabrın 17-də keçiriləcək andiçmə mərasimindən sonra vəzifəsinin icrasına başlayacaq.